# Dövlət qayğısı sakinlərə yüksək ruh verir

## Aydınqışlaq kəndi

***Bir qayda olaraq yerlərdə vətəndaşların qəbulunun keçirilməsinə üstünlük verən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev sakinlərin problemlərini, təklif və istəklərini dinləmək üçün bütün yaşayış məntəqələrində səyyar görüş-qəbullar keçirir.***

***Mayın 3-də Aydınqışlaq kəndində keçirilən görüş-qəbula da kəndin sakinləri böyük mütəşəkkilliklə gəlmişdilər. Bu onun nəticəsi kimi qiymətləndirilməlidir ki, əhali öz problemlərinin həllini yerli icra strukturlarında görür və onların qaldırdıqları məsələlərə rayon rəhbərliyi tərəfindən qayğı ilə yanaşılır. RİH başçısının bu dəfəki görüşündə də səslənən fikirlər bir daha deyilənləri təsdiq edir.***

Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, aidiyyəti xidmət təşkilatlarının rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan sosial islahatlar, iqtisadi sahədə qazanılan uğurlar və görülən işlər barədə sakinlərə ətraflı məlumat verib.

RİH-nin başçısı bildirib ki, ölkədə gedən böyük quruculuq işlərinin fonunda Qəbələdə də çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektləri tikilərək istifadəyə verilib, yeni yollar salınıb, yaşayış məntəqələrinə qaz xətləri çəkilib. Qeyd olunub ki, həyata keçirilən yenidənqurma işləri rayonumuzun hərtərəfli inkişafı üçün möhkəm əsas yaradır.

Natiq qeyd edib ki, hər bir qəbələli kimi Aydınqışlaq kəndinin sakinləri də qarşıya qoyulmuş vəzifələrin, yeni layihələrin həyata keçirilməsi üçün fədakarlıqla çalışmalı, xüsusilə strateji əhəmiyyətə malik kənd təsərrüfatı sahələrinin, o cümlədən baramaçılığın, tütünçülüyün və fındıqçılığın inkişafına diqqəti artırmalı, torpaqlardan təyinatı üzrə istifadə edilməsi məsələlərində diqqətli olmalıdırlar.





Daha sonra rayon icra hakimiyyətinin başçısı kəndin problemlərindən danışıb və onların həlli yolları barədə öz mülahizələrini sakinlərlə bölüşüb.

Sakinlərdən Ələddin İsgəndərov, Fikrət Valehov, Sənani Məmmədov, Təmraz Mehdiyev, Nüsrət Əhmədov və başqaları çıxış edərək əhalinin rifahının yaxşılaşdırılmasına, yeni iş yerlərinin yaradılmasına və kənd adamlarına aqrar sahənin inkişafı ilə bağlı göstərilən dövlət qayğısına görə ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər.

Qəbuldan razı qalan vətəndaşlar RİH-nin başçısı ilə görüş zamanı Zarağan-Aydınqışlaq yolunun asfaltlaşdırılmasını, yeni yaşayış massivinə qaz xəttinin çəkilməsini, elektrik xətlərinin təmir olunmasını, kəndin seldən mühafizəsini təmin etmək üçün beton bəndin inşasını, məktəbdə əlavə tədris korpusunun tikilməsini, sakinlərin istirahəti üçün park salınmasını xahiş ediblər.

Səbuhi Abdullayev qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyatı üzrə idarə-müəssisə rəhbərlərinə zəruri tapşırıqlarını verib.

## Bunud kəndi

Mayın 7-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Bunud kəndində növbəti səyyar görüş-qəbulu keçirilib.

Görüş-qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Rüfət Əliyev, rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.



Görüşdə giriş nitqi ilə çıxış edən Səbuhi Abdullayev respublikamızın sosial-iqtisadi inkişafından, ölkə başçısının rəhbərliyi ilə aparılan sosial islahatlardan, vətəndaşların rifahının daha da yaxşılaşdırılması istiqamətində onlara göstərilən dövlət qayğısından, o cümlədən Qəbələ rayonunda həyata keçirilən sosial infrastruktur layihələrindən və genişmiqyaslı abadlıq-quruculuq işlərindən danışıb.

Son illər Bunudda kəndarası yolların qaydaya salındığı, yeni artezian quyusunun qazıldığı, körpü tikildiyi, suvarma kanalının təmir olunduğunu, iki ədəd elektrik transformatorunun qoyulduğunu, yaşayış məntəqəsinin dayanıqlı rabitə, fasiləsiz işıqla təchiz edildiyini diqqətə çatdıran rayon icra hakimiyyətinin başçısı infrastruktur layihələrinin davam etdiriləcəyini bildirib.



Sonra vətəndaşlar dinlənilib. Onlar müraciətlərində dövlət tərəfindən əhaliyə göstərilən diqqət və qayğıya, kənddə problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərə görə ölkə rəhbərinə öz minnətdarlıqlarını bildiriblər.

Sakinlərdən Aydın Qəhrəmanov, Dahi İsayev, Ülfət Əzizov, İradə Baxışova və başqaları çıxışlarında kənddə su kanallarının qazılaraq təmizlənməsini, elektrik dirəklərinin dəyişdirilməsini, tibb məntəqəsi üçün bina tikilməsini, məktəbin əsaslı təmir olunmasını, kəndin mərkəzi yolunun asfaltlaşdırılmasını, əraziyə təbii qaz xəttinin çəkilməsini və yeni uşaq bağçasının inşa edilməsini xahiş ediblər.

Qəbulda irəli sürülən təkliflərin icrası ilə əlaqədar rayon icra hakimiyyətinin başçısı tərəfindən aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilib.

**"Qəbələ"**

**İlkin Vəlizadə (foto).**

# Qəbələdə ilin birinci rübü uğurlu olmuşdur

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə dair hesabat

## MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları, əziz qonaqlar!**

**Xanımlar və cənablar!**

Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

İclasdakı giriş nitqində cənab İlham Əliyev qarşıya qoyulan bütün vəzifələrin uğurla və vaxtında icra edildiyini diqqətə çatdırmış, keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirmişdir.

Cənab Prezident ölkənin iqtisadi, siyasi, və sosial sahələrini əhatə edən məsələlərə toxunaraq görülmüş işləri xüsusi qeyd etmiş, yeni tövsiyələrini və tapşırıqlarını vermişdir.

İclasda qeyd olunub ki, sabitlik, davamlı inkişaf, idarəetmə sistemində təkmilləşmə, yeni-yeni hədəflər Azərbaycanın bugünkü reallıqlarıdır və bu amillərin fonunda ölkəmizin ən yüksək zirvələri fəth etməsi əsas məqsədimizdir.

Əhatə etdiyi dövrün hesabatı kimi dəyərləndirilən iclasda səsləndirilən statistik rəqəmlər verilən proqnozların özünü doğrultduğunu, hədəflərin gerçəkliyə çevrildiyini təsdiqləmişdir. Ölkə başçısının giriş nitqində həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən ölkəmizdə gedən proseslərə yüksək qiymət verildiyi, Azərbaycanın ən islahatçı ölkələrdən biri kimi təqdim edildiyi qeyd olunmuşdur.

Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın 25-ci yerə layiq görüldüyünü və 10 ən islahatçı ölkə arasında yer tutduğunu önə çəkən cənab İlham Əliyev bildirmişdir ki, ilin əvvəlindən böyük həcmli sosial paketin icra edilməsinə başlanılmış, minimum əməkhaqqı, minimum pensiyalar, məcburi köçkünlərə verilən müavinətlər, tələbələrin təqaüdləri və digər sosial müavinətlər artmış, problemli kreditlərlə və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemlər həll olunmuşdur.

Nazirlər Kabinetinin iclasında birinci rübdə büdcə daxilolmalarının çoxaldığı, bununla da əlavə maliyyə resursunun formalaşdığı

**(Ardı 6-cı səhifədə).**